KRED
№47 (1077) 18 noyabr 2021-ci il

# Yumorlu miniatürlər



*Şəddat* Cəfərov

## Mənim kitab hədiyyəm

Ümumdünya kitab sərgisində bizim mətbəəyə də yer ayrılmışdı. Möhtəşəm tədbir idi. Paytaxt sakinləri, rayonlardan gələn kitab həvəskarları, hətta xarici qonaqlar da sərgidə nümayiş etdirilən kitablara baxmaq, tanış olmaq, zövqlərinə uyğun kitabları almaq üçün buraya gəlirdilər.

Xüsusi zövqlə hazırlanmış kitablar göz oxşayırdı. Mən də xüsusi fikir verirdim; adamlar hədiyyəlik kitablara ayrıca maraq göstərirdi.

Bizim köşkə də yaxınlaşanlar az deyildi. Kitablarımız da göz oxşayırdı. Sərgi neçə gün davam etdi. Mən özüm də mətbəənin rəhbəri kimi sərgi günlərində köşkdə olurdum.

Buraya mətbəəmizin istehsalı olan, nəfis şəkildə çap olunmuş kitabları gətirmişdik. Öz köşkümüzdə nümayiş etdirdiyimiz kitablardan biri 44 günlük Zəfər müharibəmizin gərgin günlərindən bəhs edirdi. Kitabın müəllifi də adlı-sanlı yazarlardan idi. Mənim məsləhətimlə işğaldan azad olunan yerlərdə dağıdılmış abidələrin foto-şəkillərindən də istifadə olunmuşdu. Biz həm də abidələrin əvvəlki görkəmini əks etdirən şəkilləri də səhifələrdə paralel yerləşdirmişdik.

Köşkümüzdə nümayiş etdirdiyimiz ən çox alınan, ən çox maraq göstərilən də elə bu kitab idi.

Sərginin sonuncu günü yadıma düşdü ki, elə bu gün bizim nazirin ad günüdür. Həmin hədiyyəlik kitabdan birini götürdüm. Pulunu da sərginin kassasına köçürdüm. Kitabı səliqə ilə hədiyyə formatında bağlama etdirdim. Sərgidən çıxıb nazirimizin ad gününü təbrik üçün getdim.

Doğrusu, nazirlə çoxdan tanış idik. Lap yaxın olmasa da, mehriban ünsiyyətli münasibətimiz vardı. O məndən xeyli cavandır. İndi də nə az-nə çox, düz 50 yaşı tamam olurdu.Hər halda 50 yaş ömrün kamillik çağlarından hesab olunur. Bu yaşda hər kəs artıq dünyanın gəldi-gedərindən kifayət qədər xəbərdar olur.

Yol boyu hərdən hədiyyəlik bağlamada olan kitabı xəyalən vərəqləyirdim. Axı bu kitab üzərində biz çox məsuliyyətlə işləmişdik. Keyfiyyətli kağız, rəngli şəkillər, müəllifin də can yanğısı ilə qələmə aldığı yazılar az-çox kitaba marağı olan hər kəsi məmnun edə bilərdi.

Onu da deyim ki, mən nazirimizə kitab hədiyyə etmək fikrindən əvvəl çox düşünmüşdüm. Hansı hədiyyəni alacağımı götür-qoy etmişdim. Düşünürdüm ki, necə hədiyyə alım ki, onun xoşuna gəlsin?

Hər halda nazirdir, dolanışığı da pis deyil. Demək olar ki, onun hər şeyi vardı. Evi kifayət qədər zəngin idi. Bir dəfə evlərində olanda otağına göz gəzdirdim. Gördüm ki, otağında heç boş yer də yoxdur. Amma bir şey yadıma düşdü ki, onun kitab rəflərinin yarısı boş idi. Boş olan yerlərdə bəzi xrustal qablar yerləşdirilmişdi. Ona görə də fikirləşdim ki, ona yaxşı kitab bağışlasam lap yerinə düşəcək.

Sərgidə 16 xarici ölkədən nəşriyyatlar öz kitablarını nümayiş etdirirdilər. Ancaq mənim öz köşkümüzdən seçdiyim kitab heç də həmin xarici ölkə nəşriyyatlarının kitablarından aşağı səviyyədə deyildi, hələ bəlkə çox üstünlüyü vardı.

Elə bu düşüncələrlə nazirin evinə çatdım.

O məni çox mehribancasına qarşıladı və masanın arxasına dəvət etdi. Oturmamış hədiyyəni (kitabı)ona təqdim etdim. Özü də əvvəlcə bağlamanı açdım. Kitab çılçırağın işığında parıldayırdı. O təşəkkür edib, kitabı alıb masanın üstünə qoyanda stol laxladı. Nazir cəld kitabı götürüb masanın ayağının altına qoydu ki, stol laxlamasın. Stol laxlamadı, amma mən çox pərt olmuşdum. Sonra da fikirləşdim ki, nə yaxşı ki, mənim gətirdiyim hədiyyə də nəyəsə yaradı.

*11.11.2021*

## Bu nədir, mavzoleyə gəlmisən?

Hüseynqulu mənim köhnə dostlarımdandır. Hərdən boş vaxtlarında zəng edir, keçmişi yada salırıq. Əvvəllər mənim yanımda işləmişdi. Sonra biznesə qurşandı. Əli də yaxşı gətirdi. Belələrinin haqqında deyirlər ki, özünü tutub. Elə özünü tuta-tuta keçirdiyi illəri yada salanda da görürəm ki, yaşadığı ömrün əvvəlinə yuxarıdan-aşağı baxır.

Axır ki, sonuncu zəngində ad gününü mənə xatırlatdı. Dedi ki, evdə olacağam. Keçmiş dostlarımızdan da bir neçə nəfər gələcək. Elə səni də görmək istəyirəm.

Hüseynqulunun bu isti təklifi məni xeyli məmnun etdi. Axı uzun müddət idi ki, onun evinə yolum düşmürdü. Bilirdim ki, köhnə mənzilini çoxdan dəyişib. Ayrıca torpaq sahəsi alıb. Yaxşı bir villa da tikdirib.

Doğrusu, o da ağlıma gəldi ki, Hüseynqulu yəqin təzə sarayını köhnə dostlarına göstərmək üçün məclis qurub. Axır ki, getməli oldum, neyləmək olar? Axı köhnə dostum Hüseynqulunun ad günü idi. Bəli, o, ad gününü elə təsəvvür etdiyim yeni evində qeyd edirdi.

Əliboş gedə bilməzdim. Bahalı dükanlardan birinə girdim. Yaxşı bir köynək aldım. Qonşu köşkdə də satılan güllərdən bir dəstə bağlatdım. Beləcə, hədiyyələrimi də götürüb dostumun evinə gəldim.

Evin qapısını Hüseynqulu özü açdı. Mehribancasına görüşdük. Mən hədiyyəni və və gül dəstəsini dostuma uzatdım. O, köynəyi məndən alıb arxasında duran həyat yoldaşına verdi. Gül dəstəsini isə ona verəndə hiss olunacaq istehza ilə gülümsündü. Əlimdə tutduğum təzə-tər gül buketini göstərərək dedi:

-Ay Əhməd! Bu nədir? Sən, deyəsən, ünvanı səhv salmısan. Bura mavzoleydir?

*02.11.2021*